## Gürcüstan Respublikasına dizel yanacağı göndərilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Gürcüstan Respublikasında yanacaq və elektrik enerjisi ilə təminatda yaranmış mürəkkəb vəziyyəti nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Gürcüstan Respublikasına humanitar yardım kimi 1000 (min) ton dizel yanacağının göndərilməsini təmin etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 16 noyabr 2000-ci il
572

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 30 noyabr, № 11.- S.4655.